Azərbaycan. - 2025.- 9 sentyabr (№191).- S.9.

# Ədalətsiz vasitəçilik dövrü bitdi

Qarabağ münaqişəsinin həlli istiqamətində uzun illər davam edən danışıqlar prosesində ATƏT-in Minsk qrupunun həmsədrləri əsasən regiona nəticəsiz səfərləri ilə yadda qaldılar.



Onlar problemin həll olunmamasını tərəflərin ortaq razılığa gələ bilməməsi ilə əlaqələndirsələr də, sual ortaya çıxırdı: əgər tərəflər məsələni öz aralarında həll etmək iqtidarında idisə, Minsk qrupunun mövcudluğuna nə ehtiyac var idi? Münaqişənin 30 ilə yaxın müddətdə həll olunmamasında əsas səbəblərdən biri onun beynəlxalq səviyyəyə çıxarılması və burada müxtəlif maraqların toqquşması idi. Hər bir həmsədr ölkə məsələyə öz milli maraqları prizmasından yanaşaraq ortaq və ədalətli mövqe formalaşdırmaqda çətinlik çəkirdi. Beynəlxalq hüquq və ədalət prinsipləri bu maraqların kölgəsində qalırdı. İkili standartlara əsaslanan bu yanaşma isə bəzi beynəlxalq güclərin siyasətinin əsas tərkib hissəsinə çevrilmişdi.

Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycan dövləti beynəlxalq münasibətlərdə ikili standartların yolverilməzliyini və bunun ədalətsizlik yaratdığını dəfələrlə ən yüksək tribunalardan bəyan edib. Prezident İlham Əliyev çıxışlarında bu mövqeni qətiyyətlə ifadə edərək, dünyaya açıq çağırış ünvanlayıb:  Əgər bu gün ikili standartlar beynəlxalq siyasətdə qəbul edilmiş bir meyardırsa, o zaman bu açıq şəkildə bəyan olunsun. "Bu mesaj həm qlobal ədalətsizliyə etiraz, həm də beynəlxalq sistemə ünvanlanan prinsipial mövqe idi. Azərbaycan beş il əvvəl 44 günlük Vətən müharibəsində təkcə öz ərazi bütövlüyünü deyil, həm də illərlə pozulmuş beynəlxalq hüququ və tarixi ədaləti bərpa etdi. Dünyanın uzun illər ərzində həll edə bilmədiyi bir problemi ölkəmiz cəmi 44 gün ərzində çözərək torpaqlarını işğaldan azad etdi. Bu gün Qarabağda və Şərqi Zəngəzurda dalğalanan Azərbaycan bayrağı, sürətlə həyata keçirilən bərpa-quruculuq işləri, doğma yurdlarına qayıdan soydaşlarımız ədalətin, milli kimliyimizin və tarixi qürurumuzun parlaq təntənəsidir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu qələbənin əsasında xalq-iqtidar birliyi, güclü siyasi iradə və xalqımızın sarsılmaz ruhu dayanır. Bu birlik və güc qarşısında heç bir qüvvə, heç bir beynəlxalq təşkilat dayana bilməz", - deyə o əlavə edib.

Deputat diqqətə çatdırıb ki, avqustun 8-də ABŞ Prezidenti Donald Trampın evsahibliyi ilə Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdən sonra ATƏT-in Minsk qrupu ilə bağlı mühüm qərar verilib. Görüşdən sonra hər iki ölkənin xarici işlər nazirləri birgə təşəbbüslə ATƏT-ə müraciət edərək, Minsk qrupunun və onunla əlaqəli strukturların ləğvi barədə rəsmi sorğu təqdim etdilər. Bu addım uzun illər nəticəsiz qalan vasitəçilik missiyasına siyasi nöqtə qoyulması baxımından tarixi əhəmiyyət daşıyır. Sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən Minsk Prosesi və əlaqəli strukturlarının, o cümlədən ATƏT-in fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə xitam verilməsi barədə qərar qəbul olunub. Eyni zamanda keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarların etibarsız elan edildiyi bildirilir. Sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 2025-ci il dekabrın 1-dən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə tapşırılıb.

K.Bayramov vurğulayıb ki, ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonen və ATƏT-in Baş katibi Feridun H.Sinirlioğlu Ermənistan və Azərbaycanın birgə müraciətindən sonra Minsk Prosesinin və ona bağlı strukturların bağlanması barədə qəbul olunmuş qərarı tarixi hadisə kimi dəyərləndiriblər: "Təşkilatın rəsmi saytında yer alan açıqlamada bildirilir: "Bu, diplomatiyanın onilliklər boyu davam edən münaqişə və etimadsızlıqdan sonra da nələrə nail ola biləcəyini göstərən tarixi bir hadisədir. Bu, tərəflərin ortaq məxrəcə gəlmək istiqamətində ortaq iradə nümayiş etdirdikdə razılığın mümkün olduğunu sübut edir". ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons da ATƏT Nazirlər Şurasının Azərbaycan və Ermənistanın birgə müraciətindən sonra Minsk Prosesinin bağlanması ilə bağlı qəbul etdiyi qərarı yüksək qiymətləndirib. O bu barədə bildirib: "Kökləri dialoqa əsaslanan bu tarixi addım Cənubi Qafqazda davamlı sülhə gedən yolu gücləndirir. Biz bu prosesi dəstəkləməyə davam edəcəyik". Türkiyə Xarici İşlər Nazirliyi də qərarı alqışlayaraq bildirib ki, iki ölkənin ortaq səyi ilə reallaşan bu addım Azərbaycan-Ermənistan sülh prosesi üçün mühüm mərhələdir".

Deputat qeyd edib ki, ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının ləğvi yalnız bir formatın bağlanması deyil, eyni zamanda regionda yeni reallıqların, postmünaqişə dövrünün rəsmən tanınmasıdır. Bu qərar Ermənistanla Azərbaycan arasında normallaşma prosesinin praktik mərhələyə keçdiyini təsdiqləməklə yanaşı, həm də Dağlıq Qarabağ adlı münaqişənin beynəlxalq hüquqi sənədlərdə son dəfə yer alması anlamına gəlir. Artıq "status" məsələsi tarixə qovuşub və bu, təkcə Azərbaycanın diplomatik uğuru deyil, həm də Cənubi Qafqazda sabitliyin bərqərar olunması yolunda atılmış ciddi addımdır. "Bir sözlə, heç bir xarici təzyiqə əhəmiyyət verməyən, prinsipial və ardıcıl mövqe sərgiləyən Prezident İlham Əliyev müharibədə qazandığı qələbəni sülh masasında da təsdiqlədi. Bu, Azərbaycanın siyasi iradəsinin, milli birliyinin və dövlət qətiyyətinin növbəti təntənəsi oldu. Prinsipial mövqeyindən bir addım belə geri çəkilməyən Prezident İlham Əliyev necə ki, Vətən müharibəsində ölkəmizə parlaq qələbə qazandırdı, eləcə də sonrakı dövrdə bölgədə yaranmış yeni reallıqları beynəlxalq səviyyədə qəbul etdirərək siyasi və diplomatik sahədə də mühüm uğurlara imza atdı. Bu, Azərbaycanın güclü liderlik iradəsinin, xalq-dövlət birliyinin və milli qətiyyətinin növbəti təsdiqi, regionda davamlı sabitliyin təmin olunması istiqamətində tarixi nailiyyətdir", - deyə K.Bayramov vurğulayıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***